

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 73 (21.483)

22 aprel 2016-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 21-də İran İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri, Azərbaycan və İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Mahmud Vaezinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı İlham Əliyev Mahmud Vaezinin ölkələrimiz arasında dostluq əlaqələrinin inkişafı üçün çox böyük işlər gördüyünü, Azərbaycan xalqı və dövləti tərəfindən bu işlərin yüksək qiymətləndirildiyini deyib. Prezident İlham Əliyev Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafındakı xüsusi xidmətlərinə görə İranın rabitə və informasiya texnologiyaları naziri Mahmud Vaezinin Azərbaycanın yüksək dövlət mükafatlarından olan "Dostluq" ordeni ilə təltif olunduğunu deyib və ordeni ona təqdim edib.

Azərbaycanın yüksək dövlət mükafatlarından olan "Dostluq" ordeninə layiq görülməsinə görə dövlətimizin başçısına minnətdarlığını ifadə edən İran İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri Mahmud Vaezi öz xalqına və öz dinindən olan qonşu Azərbaycan xalqına xidmət etməsindən iftixar hissi duyduğunu vurğulayıb.

# 2016-cı ilin ilk rübündə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı

Muxtar respublikada iqtisadiyyatın şaxələndirilməsi, sosial sahənin inkişafı üzrə aparılan tədbirlər 2016-cı ilin ilk rübündə də davam etdirilmişdir.

Cari ilin yanvar-mart ayları ərzində ümumi inkişafın əsas göstəricisi olan ümumi daxili məhsul istehsalının həcmi 478 milyon 932 min manatdan artıq olmuşdur ki, bu da bir il öncəki müvafiq göstəricidən 2,5 faiz çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi ötən ilin müvafiq dövrünə nisbətən 5,6 faiz artaraq 1076 manatı ötmüşdür. Ümumi daxili məhsulun tərkibində ilk yeri 33 faizlik payla sənaye sahəsi tutmuş və maddi istehsalın payı 56,9 faiz təşkil etmişdir.

2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 2016-cı ilin yanvar-mart aylarında sənaye məhsulunun həcmi 1,8 faiz, kənd təsərrüfatının ümumi məhsulu 4,6 faiz, nəqliyyat sektorunda yük daşınması 1,8 faiz, informasiya və rabitə xidmətlərinin həcmi 2,6 faiz, o cümlədən mobil rabitə xidməti 1,5 faiz, pərakəndə əmtəə dövriyyəsi 2,3 faiz, əhaliyə göstərilən pullu xidmətlər 3,6 faiz, ixracın həcmi 2,1 faiz, əhalinin gəlirləri 3,5 faiz, hər bir nəfərə düşən gəlirlər 2,4 faiz artmışdır.

*Makroiqtisadi göstəricilər*

| Müqayisə predmeti | 2016-cı ilin yanvar-mart ayları (min manat) | 2016-cı ilin yanvar-mart ayları 2015-ci ilin yanvar-mart aylarına nisbətən, faizlə |
|---|---|---|
| Ümumi daxili məhsul | 478932,4 | 102,5* |
| Hər bir nəfərə düşən ümumi daxili məhsul, manat | 1076,3 | 105,6 |
| Sənaye məhsulunun ümumi həcmi | 229269,5 | 101,8* |
| Əsas kapitala yönəldilən investisiyalar | 199977,2 | 87,8 |
| Kənd təsərrüfatının ümumi məhsulu | 25218,5 | 104,6* |
| Nəqliyyat sektorunda yük daşınması, min ton | 3249,1 | 101,8 |
| İnformasiya və rabitə xidmətlərinin həcmi | 12112,3 | 102,6 |
| o cümlədən mobil rabitə üzrə | 9897,7 | 101,5 |
| Pərakəndə əmtəə dövriyyəsi | 247442,8 | 102,3* |
| Əhaliyə göstərilən pullu xidmətlər | 38277,6 | 103,6* |
| Xarici ticarət dövriyyəsi, min ABŞ dolları | 64199,5 | 108,5 |
| o cümlədən ixracın ümumi həcmi | 52680,7 | 102,1 |
| idxalın ümumi həcmi | 11518,8 | 152,2 |
| Əhalinin gəlirləri | 354551,2 | 103,5 |
| Hər bir nəfərə düşən gəlirlər, manat | 796,7 | 102,4 |
| Bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı, manat | 400,1** | 102,1 |

*) müqayisəli qiymətlər üzrə
**) yanvar-fevral ayları

## Sənaye

Muxtar respublikada iri sənaye obyektlərinin istifadəyə verilməsi, yeni məhsul növlərinin istehsalı sənayeləşmə prosesini daha da sürətləndirmiş, dinamik inkişaf təmin edilmişdir.

2016-cı ilin yanvar-mart aylarında muxtar respublikada 229 milyon 269 min 500 manat həcmində sənaye məhsulu istehsal olunmuşdur ki, bu da ötən ilin müvafiq dövründəki göstəricini 1,8 faiz üstələmişdir.

Sənaye məhsulu istehsalının 95,9 faizi malların, 4,1 faizi isə xidmətlərin payına düşmüşdür. Sənayenin dövlət sektorunda 9 milyon 654 min 600 manatlıq, qeyri-dövlət sektorunda isə 219 milyon 614 min 900 manatlıq məhsul istehsal olunmuşdur. İstehsal olunan sənaye məhsulunun 95,8 faizi özəl sektorun payına düşmüşdür.

*Sənaye məhsulu istehsalının dinamikası, min manat*




2016-cı ilin ötən dövrü ərzində muxtar respublikada dövlət dəstəyi ilə iqtisadi fəaliyyətin müxtəlif sahələrində 11 layihə üzrə istehsal və xidmət obyektləri yaradılmış, 19 layihə üzrə istehsal və xidmət obyektlərinin yaradılması isə davam etdirilmişdir.

Sənaye sahəsinin inkişafı istiqamətində bank və kredit təşkilatları tərəfindən ilk üç ay ərzində təsərrüfat subyektlərinə 370 min manat həcmində kreditin verilməsi təmin olunmuşdur.

Sənayedə istehsalın genişlənməsi ixracın da həcminə müsbət təsir göstərmiş, cari ilin ilk rübü ərzində 40 milyon 820 min 100 ABŞ dolları dəyərində sənaye məhsulları ixrac olunmuşdur.

## Hərbi quruculuq

Muxtar respublikada ordu quruculuğu istiqamətində tədbirlər davam etdirilir.

2016-cı ilin yanvar-mart aylarında Naxçıvan şəhərində mərkəzi hərbi xəstəxananın, əsgər yataqxanasının, əsgər yeməkxanasının, anqarın tikintisi davam etdirilmişdir.

"Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasında və Şərur rayonundakı "N" hərbi hissədə infrastruktur obyektlərinin tikintisi də hazırda davam etdirilir.

## Tikinti-quruculuq və su təchizatı tədbirləri

İnvestisiya qoyuluşları hər bir sahənin dinamik inkişafını sürətləndirən mühüm amillərdən biridir. Bu istiqamətdə infrastruktur quruculuğu tədbirləri çərçivəsində 2016-cı ilin yanvar-mart ayları ərzində muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 199 milyon 977 min 200 manat həcmində investisiya yönəldilmişdir. İnvestisiya qoyuluşlarının 186 milyon 59 min 900 manatı və ya 93 faizi tikinti-quraşdırma işlərində istifadə edilmişdir.

2016-cı ilin ilk rübü ərzində muxtar respublikada 53 müxtəlif təyinatlı obyekt tikilmiş və ya yenidən qurulmuş, 93 müxtəlif təyinatlı obyektin tikintisi, yenidən qurulması və ya əsaslı təmiri isə davam etdirilmişdir.

Yaşayış məntəqələrinin abadlaşdırılması, səmərəli idarəetmənin və əhaliyə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi üzrə tədbirlər cari ilin ilk rübü ərzində də davam etdirilmiş, 6 kənd mərkəzi istifadəyə verilmiş, 5 kənd mərkəzinin inşası hazırda davam etdirilir.

Naxçıvan şəhərində 2 yaşayış binasının və "Gənclər şəhərciyi" yaşayış kompleksinin tikintisi davam etdirilməkdədir.

Əhalinin həyat səviyyəsinin yaxşılaşması fərdi yaşayış evlərinin tikintisinə də müsbət təsir göstərmişdir. 2016-cı ilin ilk rübü ərzində muxtar respublikada əhalinin şəxsi vəsaiti hesabına, ümumilikdə, 93 min 630 kvadratmetr yaşayış sahəsi istifadəyə verilmişdir ki, bu da 2015-ci ilin müvafiq dövründəki göstəricidən 0,8 faiz çoxdur.

Ötən dövr ərzində Şərur, Babək, Ordubad, Kəngərli və Sədərək rayonlarında, Naxçıvan şəhərinin Tumbul, Qaraçuq, Bulqan, Qaraxanbəyli kəndlərində içməli su və kanalizasiya şəbəkəsinin tikintisi davam etdirilmişdir.

## Kənd təsərrüfatı

Muxtar respublikada əhalinin ərzaq məhsullarına olan tələbatının yerli məhsullar hesabına ödənilməsi istiqamətində əvvəlki dövrlərdə qəbul edilmiş dövlət proqramlarının uğurlu icrası və həyata keçirilən digər mühüm tədbirlər nəticəsində ümumi inkişaf təmin edilmiş, daxili bazarda məhsul bolluğu yaradılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası da muxtar respublika əhalisinin meyvə və tərəvəz məhsullarına olan tələbatının yerli istehsal hesabına təmin edilməsinə və tələbatdan artıq mövsümi məhsulların ixracına geniş imkanlar yaradacaqdır. Bu istiqamətdə cari ilin ötən dövrü ərzində 1 istixana təsərrüfatı yaradılmış, 1 istixana təsərrüfatının genişləndirilməsi isə hazırda davam etdirilir. Bundan əlavə, yaz əkinlərinin aparılması üzrə dəstəkləyici tədbirlər həyata keçirilmişdir.

Məhsul istehsalçılarının kənd təsərrüfatı maşın və mexanizmləri ilə təchizatı davamlı olaraq yaxşılaşdırılmaqdadır. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 53 ədədi 2016-cı ilin yanvar-mart aylarında olmaqla, cəmi 1738 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və avadanlıq muxtar respublikaya gətirilmişdir. 2016-cı ilin ilk rübü ərzində 33 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və avadanlıq lizinq yolu ilə məhsul istehsalçılarına verilmiş, 5 ədədi isə nağd yolla satılmışdır.

Kənd təsərrüfatının əsas sahələrindən biri olan heyvandarlığın inkişafı da diqqətdə saxlanılmışdır. Cari ilin ilk rübü ərzində 3 heyvandarlıq təsərrüfatının yaradılması davam etdirilmiş, ümumilikdə, bank və kredit təşkilatları tərəfindən bu sahəyə 3 milyon 442 min 800 manat həcmində kreditlərin verilməsi təmin olunmuşdur.

Heyvandarlıq təsərrüfatlarında 1340 baş inək, düyə və camış süni yolla mayalandırılmış, əvvəlki dövrdə mayalandırılmış inək, düyə və camışlardan 1085 baş sağlam bala alınmışdır. Azərbaycan Respublikası Prezidentinin "Heyvandarlığın cins tərkibinin yaxşılaşdırılmasına dövlət dəstəyi haqqında" 2015-ci il 19 avqust tarixli Sərəncamı ilə süni mayalanma yolu ilə alınmış hər baş buzova görə 100 manat həcmində subsidiyanın müəyyən olunması bu sahənin inkişafına təkan vermişdir.

Ardı 2-ci səhifədə

1 aprel 2016-cı il tarixə muxtar respublikanın bütün təsərrüfat kateqoriyalarında qaramalın sayı 115 min 856 baş, qoyun və keçilərin sayı 714 min 655 baş olmuşdur ki, bu da 1 aprel 2015-ci il tarixə olan göstəriciləri müvafiq olaraq 1,5 və 2 faiz üstələmişdir.

Muxtar respublikada diri çəkidə 5683,6 ton ət, 12059 ton süd istehsal olunmuşdur ki, bu da 2015-ci ilin yanvar-mart ayları ilə müqayisədə müvafiq olaraq 1,4 və 1,3 faiz çoxdur.

Daxili bazarda tələbatın yerli istehsal hesabına ödənilməsi məqsədilə 1 quşçuluq təsərrüfatının yaradılması hazırda davam etdirilir.

Cari ilin ötən dövründə kənd təsərrüfatı ilə məşğul olan təsərrüfat subyektlərinə 3 milyon 752 min 900 manat məbləğində kreditlərin verilməsi təmin olunmuşdur.

2016-cı ilin yanvar-mart aylarında bir il öncəyə nisbətən 4,6 faiz çox, yəni 25 milyon 218 min 500 manat həcmində kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur.

*Kənd təsərrüfatının ümumi məhsulu, min manat*




Muxtar respublikada məhsuldar və keyfiyyətli toxum növləri istehsalının stimullaşdırılması məqsədilə Naxçıvan şəhərində toxumçuluq təsərrüfatı üçün yeni kompleksin inşası davam etdirilir.

2016-cı ilin ilk 3 ayı ərzində muxtar respublikadan 11 milyon 860 min ABŞ dollarından artıq həcmdə kənd təsərrüfatı məhsulları ixrac olunmuşdur.

Meliorasiya-irriqasiya sistemlərinin yeniləşdirilməsi diqqət mərkəzində saxlanılmış, Kəngərli rayonunun Böyükdüz və Xok kəndləri ərazisində qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilmişdir.

Şərur rayonunda kollektor-drenaj şəbəkələrinin, Babək rayonunun Nehrəm kəndində kollektorun təmizlənməsi davam etdirilir.

Araz çayında sahilbərkitmə işlərinin, Şərur rayonunun Ələkli kəndinə suvarma xəttinin çəkilişi, Babək rayonunun Vayxır kəndi ərazisində, "Qahab" selovunda, Naxçıvançayda və Şərur rayonunda Arpaçayda istiqamətləndirici bəndlərin tikintisi davam etdirilir.

Babək rayonunda Uzunoba Su Anbarına sugətirici kanalın təmiri, Sədərək rayonunda kollektor və drenajların bərpası, Araz çayından sugətirici kanalın təmizlənməsi hazırda davam etdirilir.

Muxtar respublikada 1 subartezian quyusunun tikintisi, 2 subartezian quyusunun bərpası, 3 kəhrizin təmiri başa çatdırılmışdır. 2 subartezian quyusunun tikintisi, 6 kəhrizin təmiri isə hazırda davam etdirilir.

## Nəqliyyat, informasiya və rabitə, energetika

Muxtar respublikada artan əhali tələbatına uyğun olaraq müasir yol-nəqliyyat sisteminin qurulması, nəqliyyat sektorunun səmərəli idarə olunması istiqamətində tədbirlər davam etdirilməkdədir.

Cari ilin ilk rübü ərzində Şərur rayonunun Oğlanqala, Babək rayonunun Xəlilli və Yarımca, Culfa rayonunun Saltaq, Şahbuz rayonunun Daylaqlı kəndlərində avtomobil yollarının yenidən qurulması başa çatdırılmış, Babək rayonunun Gərməçataq, Culfa rayonunun Gülüstan kəndlərində avtomobil yollarının yenidən qurulması davam etdirilmişdir.

Naxçıvan şəhərində 400 yerlik avtomobil parkının tikintisi davam etdirilməkdədir.

Əhaliyə göstərilən nəqliyyat xidmətlərinin səviyyəsini yüksəltmək məqsədilə cari ilin ötən dövrü ərzində Naxçıvan-Batumi-Naxçıvan beynəlxalq avtobus marşrutu fəaliyyətə başlamışdır.

Ordubad dəmir yolu sərnişin vağzalı binasının və Ordubad yol sahəsinin inzibati binasının tikintisi, Ordubad Stansiya İdarəetmə Mərkəzinin əsaslı təmiri davam etdirilməkdədir.

Naxçıvan Beynəlxalq Hava Limanının "Qərb Terminalı"nda yenidənqurma işləri hazırda davam etdirilir.

2016-cı ilin yanvar-mart aylarında muxtar respublikada nəqliyyat sektorunda 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 1,8 faiz, sərnişin daşınması 2,2 faiz artmışdır. Yük və sərnişin daşınmasından bütövlükdə 10 milyon 984 min 700 manat gəlir əldə edilmişdir ki, bu da bir il öncəki müvafiq göstəricidən 11,7 faiz çoxdur.

Muxtar respublikada informasiya və rabitə sahəsində yeni texnologiyaların tətbiqi bu sahə üzrə göstərilən xidmətlərin əhatə dairəsini genişləndirmişdir.

Cari ilin ötən dövrü ərzində muxtar respublikada Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat və İdarələrarası Elektron Sənəd Dövriyyəsi Sistemləri istifadəyə verilmişdir. Hər iki sistem üçün proqram təminatı hazırlanmış, server və digər avadanlıqlar quraşdırılmışdır ki, bu da vətəndaşlarla dövlət qurumları arasında münasibətlərin sadələşdirilməsinə, vaxt itkisinə yol verilmədən daxil olan müraciətlərə baxılmasına və cavablandırılmasına, mərkəzi və yerli icra hakimiyyəti orqanları arasında elektron sənəd dövriyyəsinin daha operativ təşkil olunmasına imkan yaratmışdır.

Muxtar respublikada telekommunikasiya və poçt xidmətlərinin çeşidinin və keyfiyyətinin artırılması istiqamətində "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin kompüter şəbəkəsinin Azərbaycan Respublikası Mərkəzi Bankının Hökumət Ödəniş Portalına qoşulması prosesi başa çatdırılmışdır ki, bu da poçt məntəqələrində əhaliyə yeni xidmətlərin göstərilməsinə şərait yaratmışdır.

Şərur rayonunun Oğlanqala, Babək rayonunun Xəlilli, Culfa rayonunun Saltaq, Kəngərli rayonunun Yurdçu və Şahbuz rayonunun Daylaqlı kəndlərində yeni poçt bölmələri istifadəyə verilmişdir.

Şərur rayonunda Cəlilkənddə və Qorçulu kəndində, Babək rayonunun Babək qəsəbəsində və Şəkərabad kəndində mövcud karel tipli avtomat telefon stansiyaları yeni nəsil avtomat telefon stansiyaları ilə əvəz olunmuşdur.

Şərur rayonunun Yuxarı Yaycı və Axaməd kəndlərinin hər birində 160, Babək rayonunun Nehrəm və Xəlilli kəndlərinin hər birində 384, Xal-xal kəndində 176, Ordubad rayonunun Kotam kəndində 96 nömrə tutumlu avtomat telefon stansiyaları quraşdırılmış, Kəngərli rayonunun Yurdçu kəndində 384 nömrə tutumlu avtomat telefon stansiyası yeni binaya köçürülmüşdür.

Ordubad rayonunun mərkəzi avtomat telefon stansiyasında, Şərur rayonunun Qarxun, Mahmudkənd, Yuxarı Yaycı və Xanlıqlar, Babək rayonunun Sirab və Yarımca, Ordubad rayonunun Dəstə və Vənənd, Culfa rayonunun Saltaq kəndlərindəki avtomat telefon stansiyalarının hər birində 1 ədəd 48 portluq DSLAM avadanlığı quraşdırılaraq əhalinin genişzolaqlı internet xidmətindən istifadəsi təmin edilmişdir.

Muxtar respublikada "Naxtel" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 4-cü nəsil LTE şəbəkə sisteminin yaradılması üzrə işlər hazırda davam etdirilir.

Naxçıvan şəhərində "Evədək optika" layihəsinin icrası istiqamətində 27 fərdi mənzilə fiber-optik kabel xətti çəkilmişdir. Ümumilikdə, hesabat dövründə muxtar respublikada 15 kilometr məsafədə fiber-optik kabel xətti çəkilmişdir.

Muxtar respublika üzrə 679 ədəd yeni telefon şəbəkəyə qoşulmuş, 1 aprel 2016-cı il tarixə hər yüz ailəyə düşən telefon aparatlarının sayı 72-yə çatmışdır. Bu dövr ərzində hər yüz nəfərə düşən mobil telefonların sayı isə 104 ədəd təşkil etmişdir.

2016-cı ilin yanvar-mart aylarında muxtar respublikada informasiya və rabitə xidmətlərinin həcmi 2015-ci ilin müvafiq dövründəki göstəricini 2,6 faiz üstələyərək 12 milyon 112 min 300 manat olmuşdur. Ümumi xidmətlərin 81,7 faizi mobil rabitə xidmətinin payına düşmüşdür. Mobil rabitə xidmətlərinin həcmi 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,5 faiz artmışdır.

Elektroenergetika sektorunda davamlı olaraq yeni güclərin yaradılması, infrastrukturun müasir standartlar səviyyəsində yenilənməsi istiqamətində Ordubad rayonunda gücü 36 mVt olan Ordubad Su Elektrik Stansiyasının tikintisi davam etdirilmişdir.

Muxtar respublikada 7 kilometr uzunluğunda 10 və 0,4 kilovoltluq yeni elektrik verilişi xətləri çəkilmiş, 6 ədəd müxtəlif güclü transformator yarımstansiyası quraşdırılmışdır.

1 aprel 2016-cı il tarixə muxtar respublikada 83 min 995 əhali abonenti mavi yanacaqla təmin olunmuşdur.

Naxçıvan şəhərində smartkarttipli elektrik və qaz sayğaclarının quraşdırılması hazırda davam etdirilir.

## Sahibkarlıq fəaliyyəti, əhalinin gəlirləri və məşğulluq məsələləri

Dövlət siyasətinin aparıcı istiqamətlərindən birini təşkil edən sahibkarlığın inkişafı sahəsində tədbirlər davam etdirilir.

Cari ilin ilk rübü ərzində muxtar respublikada sahibkarlıq fəaliyyəti üçün verilən kreditlərin həcmi 6 milyon 669 min 500 manat təşkil etmişdir. Bu kreditlərdən 4 milyon 710 min 200 manatı fərdi sahibkarlığın inkişafına, 1 milyon 959 min 300 manatı isə yeni istehsal sahələrinin yaradılmasına və ya genişləndirilməsinə sərf olunmuşdur. Ümumilikdə, ötən dövr ərzində muxtar respublikada bank və kredit təşkilatları tərəfindən 9 milyon 607 min 100 manat həcmində kreditlərin verilməsi təmin edilmişdir.

2016-cı ilin ötən dövründə muxtar respublikada 3 hüquqi və 301 fiziki şəxs qeydiyyata alınmışdır.

Yerli istehsal sahələrinin inkişafının nəticəsidir ki, bu gün muxtar respublikada 361 növdə məhsul istehsal olunur. Bu məhsulların 119 növü ərzaq, 242 növü qeyri-ərzaq məhsullarıdır. 107-si ərzaq, 236-sı qeyri-ərzaq olmaqla, 343 növdə məhsula olan tələbatın tamamilə yerli imkanlar hesabına ödənilməsi təmin edilmişdir.

Muxtar respublikada əhalinin gəlirləri bir il öncəyə nisbətən 3,5 faiz artaraq 354 milyon 551 min 200 manata, onun hər bir nəfərə düşən həcmi isə 2,4 faizlik artımla 796,7 manata çatmışdır. Cari ilin yanvar-fevral ayları ərzində orta aylıq əməkhaqqının məbləği 400,1 manat təşkil etmişdir ki, bu da 2015-ci ilin müvafiq dövründəki göstəricidən 2,1 faiz çoxdur.

2016-cı ilin ilk 3 ayı ərzində muxtar respublikada 571 yeni iş yeri yaradılmışdır ki, bunun da 550-si və ya 96,3 faizi daimi iş yerləridir.

## İstehlak bazarı

Səmərəli məşğulluq imkanlarının yaradılması əhalinin alıcılıq qabiliyyətini yüksəltmiş, əmtəə dövriyyəsinin həcmini genişləndirmişdir.

2016-cı ilin yanvar-mart aylarında muxtar respublikanın istehlak bazarında əhaliyə 285 milyon 720 min 400 manat həcmində istehlak malları satılmış və pullu xidmətlər göstərilmişdir ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz çoxdur.

Əhaliyə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi məqsədilə Naxçıvan şəhərində Avtomobil və Ehtiyat Hissələrinin Satış Mərkəzi və yeraltı qaraj istifadəyə verilmişdir.

Şərur rayonunun Oğlanqala, Babək rayonunun Xəlilli və Yarımca, Culfa rayonunun Saltaq, Kəngərli rayonunun Yurdçu kəndlərində xidmət mərkəzlərinin tikintisi, Şahbuz rayonunun Daylaqlı kəndində xidmət mərkəzinin yenidən qurulması başa çatdırılmış, Naxçıvan şəhərinin Bulqan kəndində xidmət mərkəzinin tikintisi hazırda davam etdirilir.

## Xarici ticarət, bank işi və sığorta fəaliyyəti

Muxtar respublikanın dinamik inkişafı, ən əsası yerli istehsalın şaxələnməsi xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmışdır.

2016-cı ilin yanvar-mart aylarında muxtar respublikanın xarici ticarət dövriyyəsinin həcmi bir il öncəyə nisbətdə 8,5 faiz artaraq 64 milyon 199 min 500 ABŞ dolları təşkil etmişdir. Xarici ticarət dövriyyəsinin 52 milyon 680 min 700 ABŞ dollarını ixrac, 11 milyon 518 min 800 ABŞ dollarını idxal təşkil etmiş və 41 milyon 161 min 900 ABŞ dolları həcmində müsbət saldo yaranmışdır.

Bank sektorunun inkişafı üzrə ardıcıl tədbirlər həyata keçirilməkdədir. 1 aprel 2016-cı il tarixə muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1127-yə çatmışdır ki, bu da vəsaitlərin dövriyyəsinin sürətləndirilməsinə, nağd pulların daşınması, saxlanması və təsərrüfat əməliyyatları xərclərinin azaldılmasına müsbət təsir göstərmişdir.

1 aprel 2016-cı il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 55439-a çatmışdır ki, bunun da 50546-sı və ya 91,2 faizi aktiv hesablardır. 2016-cı ilin ilk rübü ərzində açılmış 6057 bank hesabının hamısı aktiv hesablar olmuşdur.

Səmərəli sığorta sisteminin formalaşdırılması istiqamətində tədbirlər davam etdirilməkdədir. 2016-cı ilin ilk rübü ərzində muxtar respublikada sığorta növləri üzrə daxilolmalar 1168,9 min manat olmaqla bir il öncəki göstəricini 0,6 faiz üstələmişdir.

## Təhsil, səhiyyə, sosial təminat, mədəniyyət və turizm

Təhsil sahəsi üzrə infrastruktur quruculuğu tədbirləri çərçivəsində Naxçıvan Dövlət Universitetinin İqtisad fakültəsinin, Naxçıvan Müəllimlər İnstitutunun binalarının tikintisi, Naxçıvan Dövlət Texniki Kollecinin, Ordubad şəhərində Texniki-Peşə və Sürücülük Məktəbinin binalarının yenidən qurulması hazırda davam etdirilir.

Muxtar respublika iqtisadiyyatının müxtəlif sahələrinin inkişafı üzrə ixtisaslı kadrların yetişdirilməsi əsas şərtdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" 2015-ci il 27 iyul tarixli Sərəncamı bu sahəyə kompleks şəkildə yanaşmanı təmin etmiş, ixtisaslı kadrların hazırlanmasına geniş imkanlar yaratmışdır.

Muxtar respublikada təhsilin səviyyəsinin daha da yüksəldilməsi, texniki fənlər üzrə şagirdlərin istedad və bacarıqlarının aşkara çıxarılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 14 aprel tarixli Sərəncamı ilə yaradılmış Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseydə hazırda inşaat işləri davam etdirilir.

Babək rayonunun Xəlilli kəndində 144, Culfa rayonunun Saltaq kəndində 306, Şahbuz rayonunun Daylaqlı kəndində 168 şagird yerlik tam orta məktəb binalarının tikintisi, Şərur rayonunun Oğlanqala kəndində 576, Babək rayonunun Yarımca kəndində 342, Kəngərli rayonunun Yurdçu kəndində 270 şagird yerlik tam orta məktəb binalarının yenidən qurulması başa çatdırılmışdır.

Şərur şəhərində 2 nömrəli məktəb binasının, Naxçıvan şəhərinin Tumbul, Şərur rayonunun Çəmənli, Babək rayonunun Məzrə, Ordubad rayonunun Baş Dizə, Culfa rayonunun Gülüstan, Şahbuz rayonunun Kolanı kəndlərində məktəb binalarının tikintisi davam etdirilir.

Əhaliyə göstərilən səhiyyə xidmətlərinin daha da yaxşılaşdırılması istiqamətində Babək rayonunun Xəlilli və Şahbuz rayonunun Daylaqlı kəndlərində feldşer-mama məntəqələrinin tikintisi, Kəngərli rayonunun Yurdçu kəndində feldşer-mama məntəqəsinin yenidən qurulması başa çatdırılmışdır.

Babək rayonunun Yarımca kəndində həkim ambulatoriyası binasının tikintisi, Şərur rayonunun Oğlanqala, Culfa rayonunun Saltaq kəndlərində həkim ambulatoriyası binalarının yenidən qurulması başa çatdırılmış, Culfa rayonunun Xanəgah kəndində həkim ambulatoriyası binasının tikintisi davam etdirilmişdir.

*Ardı 3-cü səhifədə*

Sosial layihələr çərçivəsində hesabat dövründə yüksək ixtisaslı həkim heyəti tərəfindən, ümumilikdə, 107 cərrahi əməliyyat, o cümlədən 21 nəfər xəstədə açıq ürək, 6 nəfər xəstədə göz və 80 nəfər xəstədə digər müxtəlif əməliyyatlar aparılmışdır.

2016-cı ilin ilk rübü ərzində muxtar respublikada hər bir nəfərə düşən aylıq gəlirləri ehtiyac meyarından aşağı olan ailələrə 734 min 814 manat həcmində ünvanlı dövlət sosial yardımı ödənilmişdir.

Bu dövr ərzində 435 tənha ahıl və sağlamlıq imkanları məhdud şəxslərə evlərində sosial-məişət xidmətləri göstərilmiş, Naxçıvan Əlillərin Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 72 nəfərin, Naxçıvan Uşaq Bərpa Mərkəzində isə 71 uşağın müalicəsi təşkil edilmişdir. Sağlamlıq imkanları məhdud 27 nəfər sanatoriya və müalicə pansionatlarına yollayışlarla təmin edilmiş, 76 nəfərə protez-ortopedik xidməti göstərilmiş, 21 nəfər texniki reabilitasiya vasitələri ilə təmin olunmuşdur.

Sosial qayğıya ehtiyacı olan 1 şəhid ailəsinə və 2 sağlamlıq imkanları məhdud Azərbaycan Vətən Müharibəsi iştirakçısına yeni mənzillər təqdim edilmiş, 14 nəfərin ölkə daxilində müalicəsinə, 31 nəfərin isə sosial-məişət şəraitinin yaxşılaşdırılmasına köməklik göstərilmişdir.

Əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi, öz növbəsində, demoqrafik vəziyyətə müsbət təsir göstərmiş, muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 4,7 min nəfər artaraq 1 mart 2016-cı il tarixə 445,2 min nəfərə çatmışdır.

Muxtar respublikada pensiya və müavinətlərin dayanıqlı maliyyə təminatı formalaşdırılmışdır. Dövlət Sosial Müdafiə Fondu tərəfindən 2016-cı ilin yanvar-mart aylarında pensiya və müavinətlərin ödənilməsinə bir il öncəyə nisbətdə 7,2 faiz çox, yəni 30 milyon 559 min manatdan artıq vəsait yönəldilmişdir.

Muxtar respublikada bədən tərbiyəsi və idmanın inkişafı üzrə ardıcıl tədbirlər həyata keçirilmiş, bu sahədə infrastrukturun yenilənməsi istiqamətində Şərur rayonunda Mahmudkənddə idman meydançasının yenidən qurulması davam etdirilir.

Milli dəyərlərimizin təbliği, onun daha da zənginləşdirilərək gələcək nəsillərə ötürülməsi diqqətdə saxlanılmış, Şərur rayonunun Xanlıqlar kəndində "İmamzadə" tarixi abidəsi bərpa edilmiş, Naxçıvan şəhərində məscidin tikintisi, Culfa rayonunda Gülüstan türbəsinin bərpası isə davam etdirilir.

Muxtar respublikada infrastruktur quruculuğu tədbirlərinin genişlənməsi, turizmin kompleks şəkildə inkişafını təmin etmək üçün həyata keçirilən tədbirlər, yeni turizm obyektlərinin istifadəyə verilməsi bu sahənin inkişafına yeni imkanlar açmışdır. Cari ilin ilk rübü ərzində muxtar respublikamıza ölkəmizin digər bölgələrindən və xarici ölkələrdən, ümumilikdə, 94 minə yaxın turist gəlmişdir ki, bu da 2015-ci ilin müvafiq dövründəki göstəricidən çoxdur.

## Hüquq-mühafizə orqanları ilə iş

Muxtar respublikada hüquq-mühafizə orqanlarının maddi-texniki bazasının və bu sahədə çalışanların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində tədbirlər görülür.

Sədərək rayonunda Sədərək sərhəd gömrük-buraxılış məntəqəsinin, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin zabitləri üçün yataqxana binasının tikintisi davam etdirilir.

Aparılan təhlillər göstərir ki, muxtar respublikada həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində hərtərəfli inkişafa nail olunmuş, yeni uğurlar əldə edilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Dövlət Statistika Komitəsi**

## Türkiyə Respublikası Ali Məhkəməsinin sədri:

## *Naxçıvan qədim tarixə, müasir infrastruktura və ecazkar təbiət gözəlliyinə sahib olan möhtəşəm bir diyardır*

*Xəbər verdiyimiz kimi, Türkiyə Respublikası Ali Məhkəməsinin sədri İsmayıl Rüştü Ciritin rəhbərlik etdiyi nümayəndə heyəti aprelin 20-də Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində qədim diyarın tarixi-memarlıq abidələri, muzeyləri, görməli yerləri ilə tanış olub.*



Səfər təəssüratlarını bizimlə bölüşən Türkiyə Respublikası Ali Məhkəməsinin sədri dedi ki, Naxçıvan Muxtar Respublikası qədim tarixə, müasir infrastruktura və ecazkar təbiət gözəlliyinə sahib olan möhtəşəm bir diyardır. Muxtar respublikanın özünəməxsus iqlimi, təmiz havası və suyu, qədim tarixə malik mədəniyyət abidələri, yaşıllığa bürünən Naxçıvan şəhərinin müasir görkəmi insanı heyran edir. Onun sözlərinə görə, Naxçıvanın şöhrətini dünyaya yayan təbii ehtiyatları arasında Duzdağın müalicəvi duz şaxtaları xüsusi yer tutur. Regionda analoqu olmayan bu müəssisə yuxarı tənəffüs yolları xəstəliklərindən əziyyət çəkənlərin müalicə mərkəzi kimi diqqəti cəlb edir.

Naxçıvan şəhərində yerləşən Heydər Əliyev Muzeyini də ziyarət etdiyini deyən İsmayıl Rüştü Cirit bildirdi ki, dahi şəxsiyyətin fotoşəkillərinə, ulu öndərə məxsus şəxsi əşyalara və bir sıra digər qiymətli eksponatlara maraqla baxıb. Ümummilli liderin ictimai-siyasi fəaliyyətindən bəhs edən kitabları nəzərdən keçirib, Azərbaycanın xilaskarının 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrə aid rəsmi sənəd və materiallar, məktublar onun diqqətini cəlb edib.

Qonaq qeyd etdi ki, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Mömünə Xatın və Açıq Səma Altında Muzey Kompleksində, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində olub, Nuh Peyğəmbərin məzarüstü türbəsini, "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksini ziyarət edib. O deyib: "Naxçıvan diyarı möhtəşəm mədəniyyət, dini memarlıq və ecazkar məqbərə qüllələri ilə zəngindir. Müqəddəs "Qurani-Kərim"də Əshabi-Kəhflə bağlı ayələrin mövcud olduğu məlumdur. Buradakı alimlər həmin məkanın, həqiqətən də Əshabi-Kəhf olması ehtimalının güclü olduğunu vurğuladılar. Onu bildirmək istəyirəm ki, Əshabi-Kəhf ziyarətgahında çox möhtəşəm təbiət mənzərəsi, insanın ruhuna rahatlıq bəxş edən mənəvi atmosfer mövcuddur. Naxçıvana səfər etdiyimə görə çox məmnunam. Çünki mənim babalarım da vaxtilə Naxçıvandan Anadoluya köç ediblər. Bu məkanda, Naxçıvan mənim ata yurdumdur. Ata yurdumun bu qədər gözəl və möhtəşəm olduğunu gördüyümə sevindim".

Türkiyə Respublikası Ali Məhkəməsinin sədri muxtar respublikanın iqtisadi cəhətdən xeyli inkişaf etdiyini vurğulayaraq deyib: "Naxçıvan Biznes Mərkəzində muxtar respublikada istehsal olunan çoxsaylı sənaye və kənd təsərrüfatı məhsullarının sərgiləndiyini gördük. Bizə məlumat verildi ki, burada hazırda 86 müəssisənin 300-dən çox növdə və 1000-ə yaxın çeşiddə məhsulu nümayiş olunur. Bu, çox müsbət haldır. Naxçıvanın özünü ərzaq və digər məhsullarla təmin etməsi böyük əhəmiyyət kəsb edir. Çünki muxtar respublika bu gün blokada şəraitində yaşayır".

**Rauf ƏLİYEV**

## Akademik Zərifə xanım Əliyevanın doğum gününə həsr olunmuş aksiya

***Görkəmli elm xadimi, oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 93-cü ildönümü münasibətilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi aprelin 28-də keçiriləcək aksiyalarda aztəminatlı ailələrdən olan 93 nəfər şagird və tələbəni Almaniya istehsalı olan eynəklərlə təmin edəcək.***

İlk tədbirə Şərur Rayon Mərkəzi Xəstəxanası ev sahibliyi etmişdir. Burada keçirilən tədbiri Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini Sona Məmmədova giriş sözü ilə açaraq görkəmli alimin mənalı ömür yolundan və elmi fəaliyyətindən danışmışdır. Qeyd olunmuşdur ki, dünya şöhrətli alim və ictimai xadim, akademik Zərifə xanım Əliyevanın ömrünün mənası zülmət və qaranlıqla mübarizə aparmaqdan ibarət olmuş, işığını itirmiş gözlərə nur vermək istəyi onun parlaq obrazını qeyri-adi bir nəcibliyə qovuşdurmuşdur. İnsanları zülmət pəncəsindən qoparıb nura qovuşduran bu böyük şəxsiyyətin ömür yolu müasir Azərbaycan gəncliyi üçün də əvəzsiz bir örnəkdir.

Sonra Naxçıvan Muxtar Respublika Xəstəxanası Göz xəstəlikləri şöbəsinin həkimi Samiq Sadıqov çıxış edərək bildirmişdir ki, Azərbaycan tibb elminin korifeylərindən olan akademik Zərifə Əliyeva qayğıkeş insan, böyük alim, əsl ziyalı kimi tibb ictimaiyyətinin yaddaşına əbədi həkk olunmuşdur. Həyat fəlsəfəsi və mənəvi dünyası kifayət qədər zəngin olan, oftalmologiya elminin inkişafına böyük töhfələr verən akademik Zərifə xanım Əliyevanın xatirəsi bu gün də insanların qəlbində yaşayır, əziz tutulur. Hamının mehriban, istiqanlı, bilik və bacarığını xalqına xidmətə yönəldən böyük bir insan, ətrafına nur saçan ziyalı kimi tanıdığı akademik Zərifə xanım Əliyeva bu gün də yaddaşlarda ilahi duyğulara malik qadınlıq meyarı kimi yaşayır.

Tədbirin sonunda aztəminatlı ailələrdən olan 10 məktəbliyə görmə qabiliyyətini yüksək səviyyədə təmin edən eynəklər təqdim edilmişdir.

Şərur Rayon İcra Hakimiyyəti başçısının müavini Zəhra Bayramova akademik Zərifə xanım Əliyevanın, bütövlükdə, öz parlaq fəaliyyəti ilə tarix salnaməsinə əbədi həkk olunduğunu, elmin çətin yollarında inamla irəliləyərək tibb elminin ən uca pillələrinə yüksəldiyini, çox məsuliyyətli, eyni zamanda ibrətamiz, nümunəvi bir həyat yolu keçdiyini vurğulamış, belə aksiyaların əhalinin sağlamlığının mühafizəsində rolundan bəhs etmişdir.

Aksiya çərçivəsində eynəklə təmin olunmuş uşaqların valideynləri çıxış edərək öz minnətdarlıqlarını bildirmişlər.

**Naxçıvan Muxtar Respublikası**
**Səhiyyə Nazirliyinin**
**mətbuat xidməti**

## Sağlam ailə sağlam gələcəyin təminatıdır

***Babək rayonunun Yarımca Kənd Mərkəzində "Ailələrdə sağlam həyat tərzinin aşılanması, reproduktiv sağlamlıq, erkən və qanqohumluğu nikahlarının fəsadları" mövzusunda tədbir keçirilib.***

Tədbiri Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova açaraq "Ailədə qadının sağlam həyat tərzi aşılamasında əsas rolu" mövzusunda çıxış edib.

Bildirilib ki, ailənin xoşbəxtliyi onun möhkəmliyindən asılıdır. Məhz elə buna görə belə ailələrin qurulması üçün dövlətimiz tərəfindən məqsədyönlü tədbirlər həyata keçirilir. Qızlar üçün nikah yaşının 18-ə qaldırılması, tərəflərin nikahdan əvvəl icbari olaraq tibbi müayinədən keçməsinin qüvvəyə minməsi, qadını, xüsusən yetkinlik yaşına çatmayan qızları nikaha daxil olmağa məcbur etməyə görə məsuliyyət müəyyən olunması bu tədbirlərin tərkib hissəsidir. Ailəyə yönəlmiş tibbi xidmət infrastrukturunun, o cümlədən reproduktiv sağlamlığın qorunması sisteminin daha da təkmilləşdirilməsi üçün "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi belə tədbirlərin davamlı xarakter almasının ifadəsidir.

Vurğulanıb ki, Azərbaycan ailəsində valideynlər uşaqlara bağlıdır, valideyn-övlad münasibəti düzgün qurulub. Uşaqlar dünyaya gələn kimi ana nəfəsini, ata sevgisini hiss edirlər. Bu məhəbbətin nəticəsidir ki, uşaqlar böyüyə hörmət, milli adət-ənənələrə ehtiram ruhunda tərbiyə olunurlar. Ailə üzvləri arasında səmimi, mədəni münasibət, böyük-kiçik yerinin bilinməsi, valideyn-övlad münasibətlərinin düzgün qurulması xalqımıza məxsus olan keyfiyyətlərdir. Övladlarını milli adət-ənənələrimiz əsasında əsl vətəndaş kimi böyüdən ailələrimiz xalqımızın milli sərvəti hesab olunur. Ailə adət-ənənəmizdə çoxəsrlik tarixə malik olan ağsaqqal və ağbirçək institutu mövcuddur. Məhz bu institutun fəaliyyəti ailə üzvləri, eləcə də ailələr arasında ünsiyyətin formalaşmasında, ailə xüsusiyyətlərinin nəsildən-nəslə ötürülməsində mühüm rol oynayır.



Ramilə Seyidova qeyd edib ki, ailələrimizdə qadının yeri və rolu xüsusi əhəmiyyət daşıyır. Qadınlarımız ictimai həyatda uğur qazanmaqla yanaşı, çox gözəl ailə sahibi olmağı və layiqli vətəndaşlar yetişdirməyi bacarırlar. Eyni zamanda qadınlarımızın ailənin bütövlüyünün qorunmasında özünəməxsus yeri vardır. Zəngin mədəni irsə malik olan xalqımızın qadının ailədə və cəmiyyətdəki roluna böyük ehtiramla yanaşmağını gərək qadınlarımız doğrultsun, ailənin möhkəmliyi, gələcək nəsillərin ruhən sağlam formalaşması üçün zəruri tədbirlər görsünlər.

Sonra Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkim-ginekoloqu, tibb üzrə fəlsəfə doktoru Gültəkin Əliyeva qadınların sağlamlıqlarının qorunması yolları, reproduktiv sağlamlıq barədə slayd vasitəsilə tədbir iştirakçılarına məlumat verib.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb, onlara müvafiq mövzularda maarifləndirici broşürlər paylanılıb.

**Naxçıvan Muxtar Respublikası**
**Ailə, Qadın və Uşaq Problemləri**
**üzrə Dövlət Komitəsinin**
**mətbuat xidməti**

*Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Şahbuz rayonunun Kükü kəndində kənd yaşıl turizminin inkişafı məqsədilə maarifləndirici tədbir keçirilib.*

## Kənd yaşıl turizmi ilə bağlı maarifləndirici tədbir

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi Aparatının Turizm şöbəsinin müdiri Piri Nağıyev "Şahbuz rayonunun Kükü kəndinin turizm potensialı" mövzusunda çıxışında tədbir iştirakçılarına kənd yaşıl turizmi haqqında ətraflı məlumat verib. Bildirilib ki, Kükü kəndində bu sahəni inkişaf etdirmək üçün geniş imkanlar mövcuddur. Qeyd edilib ki, işin düzgün qurulması adət-ənənələrimizin, milli dəyərlərimizin təbliğ olunması üçün də əhəmiyyətli rol oynaya bilər.

Tədbir iştirakçılarına mart ayında muxtar respublika Ali Məclisində Naxçıvan Muxtar Respublikasında turizmin inkişafı ilə bağlı keçirilən müşavirədə qarşıya qoyulan vəzifələr haqqında da məlumat verilib. Bildirilib ki, turizmin inkişafında vətəndaşların da üzərinə müəyyən vəzifələr düşür. Zəngin təbiətimiz, ekoloji cəhətdən təmiz qida məhsulları, şəfalı sularımız imkan verir ki, qədim diyarda kənd yaşıl turizmi yüksək səviyyədə inkişaf etdirilsin.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı Əkbər Novruzov "Kənd yaşıl turizmi və bu sahədə gəlirlərin formalaşması" mövzusunda çıxış edərək kənd turizmində evlərdə turistlərə göstəriləcək xidmətlər, qiymətlər və gəlirlərin formalaşması, bu sahədə olan qanunvericilik haqqında məlumat verib.

Naxçıvan Turizm İnformasiya Mərkəzinin direktoru Gülnarə Sadiqova "Turizm İnformasiya Mərkəzinin kənd yaşıl turizminin təbliğində rolu" mövzusunda çıxışında muxtar respublikanın təbii gözəlliklərinin, tarixi abidələrinin, istirahət guşələrinin təbliğinin əhəmiyyətindən danışıb.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Əli RZAYEV**

# Ən sevimli qonağımız tamaşaçıdır

***Mədəniyyət, incəsənət deyəndə, etiraf edək ki, ilk dəfə göz önünə teatr, səhnə, möhtəşəm tamaşalar gəlir. Bu da səbəbsiz deyil. Çünki hələ 1873-cü ildə Bakıda və 1883-cü ildə Naxçıvanda baş verən mədəni inqilab məhz milli teatrın yaranması ilə başladı. Teatr incəsənətin bütün sahələrinə təsir edə bildi. Rəssamlıq, musiqi, dramaturgiya paralel olaraq inkişaf etməyə başladı. O da qürurvericidir ki, Şərqdə ikinci teatr məhz doğma Naxçıvanımızda yarandı. Bu gün də tamaşaçıların sevimlisinə çevrilən Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının fəaliyyəti, repertuarı, yaradıcılıq emalatxanalarında gedən proses, yaqin ki, hamı üçün maraqlıdır. Elə ona görə də teatrın direktoru, Xalq artisti Rza Xudiyevlə bu barədə söhbətləşdik:***



***– Rza müəllim, Naxçıvan teatrı 133 ildir ki, tamaşaçıların görüşünə gəlir. Ümumiyyətlə, qədim ənənələrə malik olan sənət ocağında bugünkü mənzərə necədir?***

– Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı o mədəniyyət müəssisələrindəndir ki, onun işi həmişə göz qabağındadır. Yəni burada hazırlanan əsərlər tamaşaçılara təqdim etmək üçündür. Ələlxüsus da bu tamaşaçı Naxçıvan mühitində böyüyə və həddindən artıq tələbkar ola. Etiraf edim ki, buna görə bizim sahə nə qədər maraqlıdırsa, bir o qədər də çətindir. Düzdür, teatr haqda 133 ildir ki, danışılır, məqalələr yazılır, televiziya verilişləri hazırlanır, sənədli filmlər çəkilir. Amma yenə də baxırsan ki, hər dəfə deməyə nəsə yeni bir mövzu, söz tapılır. Çünki teatr həyatın səhnədə bədii inikasını özündə əks etdirən komponentdir. Həyat davam etdikcə onun yenilikləri teatrda öz əksini tapır. Düz 133 ildir ki, teatrımız yaşayır, deməli, onun seçdiyi yol, məqsəd düzgündür və o, xalqa xidmət edir. Hər sahədə olduğu kimi, teatr da bu gün dövlət qayğısı ilə əhatə olunub. 2012-ci ildə binamız yenidən əsaslı şəkildə təmir edilərək istifadəyə verilib. Müasir avadanlıqlar quraşdırılıb. İşıq sistemi yenilənib. Yaradıcılıq sexlərində ildə bir neçə tamaşa hazırlanır. Repertuara, əsasən, tarixi əsərləri salırıq.

***– Ancaq tarixi əsərlərimi? Teatrda dram, komediya, faciə janrları da var axı?***

– Doğrudur, teatrın janrları müxtəlifdir. Amma biz ona görə tarixi əsərlərə üstünlük veririk ki, gənclər tarixin hansısa bir çağında baş verən hadisələri teatr səhnəsində görüb yadda saxlasınlar. Bu tarixi əsərlər, adətən, öz milli tariximizlə bağlı olur. Teatrda uğurla oynanılan Nəriman Həsənzadənin "Atabəylər", Hüseyn Cavidin "Topal Teymur", "Səyavuş", Nəriman Nərimanovun "Nadir şah", Əli Əmirlinin "Şah Qacar", Həsənəli Eyvazlının muxtariyyət tariximizi özündə əks etdirən "Araz sahilində doğan günəş" tamaşaları hələ də tamaşaçıların yadından çıxmayıb. Ümummilli liderimiz Heydər Əliyevin həyatı və siyasi fəaliyyətindən bəhs edən Adil Babayevin "Koroğlunun Çənlibelə qayıdışı", İftixar Piriyevin "Qurtuluş dastanı" tamaşaları hələ də repertuarda qalır və bu gün gənclərin sevə-sevə baxdığı tamaşalardır. Amma teatrda, əlbəttə, komediya, dram da lazımdır. Tamaşaçı zövqünə uyğun, məişət mövzusunda əyləncəli oyunların təqdim olunması bir tərəfdən tamaşaçıların yaxşı istirahətinə xidmət edirsə, digər tərəfdən qəhrəmanların düşdüyü satirik vəziyyətlərdən ibrət almağa çağırışdır. Nəriman Nərimanovun "Nadanlıq", Tuncər Cücənoğlunun "Rəngsaz", Əli Əmirlinin "Varlı qadın" tamaşaları bu səpkidədir. Komediya digər tərəfdən aktyor oyununa da müsbət təsir edir. Etiraf edim ki, komediya bəzən kənardan asan gəlsə də, o digər janrlara nisbətən daha çətindir. Çünki tamaşaçıya süni, şit gülüş yox, təbii oyun və vəziyyət təqdim etmək xüsusi ustalıq tələb edir.

***– Repertuarınızda istədiyiniz əsərlər varmı?***

– Bu, deyim ki, bizim bir qədər çətinlik çəkdiyimiz məsələdir. Sovet vaxtı teatra konkret tapşırıqlar verilirdi. Bir əsər rus dramaturgiyası, bir əsər yerli, bir əsər o zaman deyildiyi kimi "qardaş xalqlar dramaturgiyası", bir əsər isə mütləq dünya dramaturgiyasından olmalı idi. Amma indi vəziyyət başqadır. Seçimi müasir tamaşaçının tələbinə uyğun aparırıq. Aktual olan mövzulara müraciət edirik. Daha çox isə seçimi milli dramaturgiyaya üstünlük verməklə edirik. Müəlliflər özləri də teatra əsərlər təqdim edirlər. Amma o da var ki, son vaxtlar əsərlərin heç də hamısı qənaətbəxş olmur. Ya mövzu düzgün seçilmir, ya dramaturji material, vəziyyət düzgün təhlil olunmur, ya da dramaturqların ustalığı adamı qane etmir. Nəticədə isə bəzən 30-35 əsər oxumaq məcburiyyətində qalırıq. Amma sonda 2-3 əsərin üzərində dayanırıq. Bəzi klassik əsərlər yaxşı yazılsa da, mövzusu müasir dövrün tələbinə uyğun gəlmir. Ona görə də repertuar seçimi ən çətin işimiz hesab olunur.

***– Bəs kollektiv hansı əhval-ruhiyyədədir?***

– Əlbəttə, kollektivdə ruh yüksəkliyi olmasa, teatrda iş getməz. Naxçıvan teatrı aktyor teatrıdır. Yəni buradakı tamaşaların 90 faizi aktyorların peşəkarlığı hesabına ortaya çıxır. Bunu Bakıdan dəvət etdiyimiz müxtəlif rejissorlar da təsdiq edirlər. Bu isə teatrda bu gün də yaşayan və davam edən klassik aktyor məktəbinin nəticəsidir.

***– Bəs gənclər necə, bu ənənəni qoruyub saxlaya bilirmi?***

– Açığını deyim ki, indi Azərbaycanda bu sahədə inkişaf gedir. Yəni aktyor, rejissor sənəti inkişaf edir. Tamaşaçılara müxtəlif səpkili, janrlı, orijinal formada tamaşalar təqdim olunur. Gənclər isə sanki klassik məktəblə müasir məktəbin arasında tərəddüd edirlər. Bəzən onlar aktyorluğu yalnız hansısa obrazın sözünü əzbərləyib tamaşaçıya deməklə, lap kobud şəkildə desək, "özünü göstərməklə" bitmiş hesab edirlər. Amma aktyorluğun əsasında istedadla yanaşı, mütaliə və savad dayanır. Sən dünya dramaturgiyasını, yerli dramaturgiyanı bilməsən, ədəbiyyat aləmində baş verənlərdən xəbərin olmasa, insan psixologiyasını müxtəlif ədəbi qəhrəmanların təqdimatında dərk etməsən səhnədə necə başqalaşa, obrazın daxili aləminə necə vara bilərsən? Məncə, gənclərin, daha dəqiqi aktyorların mütaliəsi bir az zəifdir. Ona görə də teatrda qoyulan tamaşalarda köhnə məktəbin aktyorları – biz onlara belə deyirik – özlərini daha tez göstərə bilirlər.

***– Rza müəllim, bəs problemi necə həll edirsiniz?***

– Bilirsiniz, son illər Naxçıvan Dövlət Universitetində Aktyor sənəti ixtisası açılıb. Düzü, bu ixtisas açılanda çox sevindik ki, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetindən son illər Naxçıvana gəlməyən aktyorların yerini yerli məzunlar dolduracaq. Amma hələ ki bu universitetdən bizə yalnız bir aktrisa gəlib. Ona görə fikirləşdik ki, özümüzdə həvəsi olan gənclər üçün studiya yaradaq. İndi teatrımızın nəzdində "Təməl" teatr studiyası fəaliyyət göstərir. İkiillik kursu qurtaran gənclərə sertifikatlar veririk və bu gün onlardan bir neçəsi artıq teatrda fəaliyyətə başlayıb. Kursa gələnləri isə kütləvi səhnələrə cəlb etməklə səhnəyə alışdırırıq. Müəllimləri də elə peşəkar aktyorlarımızdır.

***– Bu mövsümdə tamaşaçılar Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının səhnəsində hansı tamaşalara baxacaqlar?***

– Hazırda yerli yazıçı-dramaturq Həmid Arzulunun "Əlincə qalası" tamaşasının, demək olar ki, son məşqləri gedir. Yəqin ki, yaxın zamanlarda onu yekunlaşdıracağıq. Bu əsərdə 1387-1401-ci illərdə Əmir Teymurun Əlincə qalasına hücumu, onu 14 il mühasirədə saxlaması öz əksini tapıb. Sadə əlincəlilərin mübarizəsi, xalqın inadkarlıqla müqaviməti çox ustalıqla təsvir edilib. Rejissor isə təcrübəli sənətkarımız, Xalq artisti Kamran Quliyevdir. Növbəti əsərimiz isə Nəriman Nərimanovun "Nadir şah" tarixi dramıdır. Bu əsər 1997-ci ildə repertuara salınmışdı. Yerli tamaşaçılar onu çox yaxşı qarşıladılar. Bakıda, Sumqayıtda, hətta İran İslam Respublikasının Təbriz, Maku şəhərlərində də oynamışıq. Əsər Nadir şah Əfşarın həyatı, siyasi mübarizəsi və şəxsi faciəsindən bəhs edir. Bu əsər ilk tarixi dramımızdır və 18-ci əsr Azərbaycan dövlətçiliyinə Nərimanov tərəfindən ədəbi bir baxışdır. Yəqin ki, yenə də tamaşaçıların xoşuna gələcək.

***– Müsahibə üçün sağ olun.***

– Siz də sağ olun. Oxucularımızı tamaşaçı kimi teatrımızda gözləyirik. Çünki ən sevimli qonağımız tamaşaçıdır.

**Səməd CANBAXŞIYEV**

# Hamiliyə verilmiş ixtisaslarda təhsil alan tələbələrlə görüşlər davam etdirilir

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" 2015-ci il 27 iyul tarixli Sərəncamının icrası ilə bağlı müvafiq nazirliklərdə, komitələrdə və təşkilatlarda tədbirlər planı hazırlanıb.*



Həmin tədbirlər planları çərçivəsində ali təhsil ocaqlarında, o cümlədən Naxçıvan Musiqi Kollecində tələbələrlə görüşlər keçirilir. Bu çərçivədə Naxçıvan Aşıqlar Birliyi üzvlərinin kollecin Aşıq sənəti ixtisası üzrə təhsil alan tələbələri ilə görüşü keçirilib.

Görüşdə Naxçıvan Musiqi Kollecinin direktoru Həsən Seyidov çıxış edərək adıçəkilən sərəncamın əhəmiyyətindən danışıb.

Tədbirdə Naxçıvan Aşıqlar Birliyinin sədri, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Tural Bağırov, birliyin sədr müavini Fətəli Axundzadə çıxış ediblər. Bildirilib ki, muxtar respublikamızda xalqımızın tarixini və milli-mənəvi dəyərlərini özündə əks etdirən xalq yaradıcılığına göstərilən yüksək diqqət və qayğı nəticəsində onun əsas qollarından biri olan aşıq sənəti də inkişafa qovuşub. Bu mənada, Ali Məclis Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 7 fevral 2009-cu il tarixli Sərəncamını xüsusilə qeyd etmək lazımdır. Sərəncama əsasən, muxtar respublikada Naxçıvan Aşıqlar Birliyi fəaliyyətə başlayıb. Qısa müddət ərzində Aşıqlar Birliyinin üzvləri qardaş Türkiyə Cümhuriyyəti və İran İslam Respublikasında olub, Bakı şəhərində keçirilən "Telli sazın meydanı" məclisində muxtar respublikanı uğurla təmsil ediblər. Bundan başqa, minilliklərdən üzübəri gələn mənəvi zənginlik, xalqın istək və arzularının təcəssümü olan saz havaları Novruz bayramı şənliklərində geniş yer tutur.

Aşıqlar Birliyinin üzvləri kollecin tələbələrinə ustad dərsi keçiblər. Birliyin üzvlərindən Aydın Cəfərov və Şirin Şirinzadə tələbələrə səs diapazonuna uyğun repertuar seçimi, düzgün tələffüz və vurğu, ifa zamanı tənəffüs orqanlarının fəaliyyətinin düzgün tənzimlənməsi, səhnə mədəniyyəti, sazın düzgün köklənməsi ilə bağlı tövsiyələr veriblər.

**Sara ƏZİMOVA**

## İdman xəbərləri

# Hərbçilər arasında keçirilən birincilik başa çatıb



***Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində Əlahiddə Ümumqoşun Ordusunun əsgər və zabitləri arasında yunan-Roma güləşi, sərbəst güləş və cüdo üzrə birincilik keçirilib. 3 gün davam edən birincilikdə 14 komandanın 130-dan çox idmançısı mübarizə aparıb.***

Yarışın açılışında Əlahiddə Ümumqoşun Ordusunun fiziki hazırlıq və idman rəisi, mayor Vahid Məmmədov çıxış edərək keçirilən birinciliyin mahiyyəti barədə danışıb. Vurğulayıb ki, yarışı keçirməkdə məqsəd əsgər və zabitlərin fiziki hazırlıq durumunu yoxlamaq və onları idman sahəsinə cəlb etməkdir.

Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının hakimləri tərəfindən idarə olunan görüşlərin nəticəsinə gəlincə, yunan-Roma güləşində Hüseyn Hüseynov (59 kiloqram), Teymur Tapdıqlı (66 kiloqram), Elvin Ələkbərov (71 kiloqram), Həsən Abdullayev (75 kiloqram), Əmrah Məmmədov (80 kiloqram), Ucal Rüstəmov (85 kiloqram), Vaqif Abutalıbov (98 kiloqram) və Zamin Məmmədov (130 kiloqram) bütün rəqiblərinə qalib gələrək yarışın birincisi olublar. Sərbəst növdə isə Vüsal Məmmədov (57 kiloqram), Musa Həsənov (61 kiloqram), Elşən Mustafayev (65 kiloqram), Məhərrəm Quliyev (70 kiloqram), Roman Quliyev (74 kiloqram), Məmməd Ömərov (86 kiloqram), Əmrah Salmanov (97 kiloqram) və Rza Vəliyev (130 kiloqram) yüksək nəticə əldə ediblər.

Yarışın son günündə isə tatami üzərinə cüdoçular çıxıb. Gərgin keçən mübarizə nəticəsində Ruhin Əliyev (60 kiloqram), Fərid Yəhyayev (66 kiloqram), Xaliq Niftəliyev (73 kiloqram), Məcid Rzayev (81 kiloqram), Vüsal Məmmədov (90 kiloqram), Əqil Qasımov (100 kiloqram) və Vüsal Cəfərov (100+) fəxri kürsünün birincisi adına layiq görülüblər.

Qalib idmançılara Əlahiddə Ümumqoşun Ordusunun komandanlığı tərəfindən diplom və fəxri fərmanlar təqdim olunub.

# İdmançımız Avropa çempionu olub

Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyasının yetirməsi olan Nail Hüseynov daha bir uğura imza atıb. O, Ukraynanın Xarkov şəhərində kikboksinq üzrə Avropa çempionatında iştirak edib. İdmançımız ful-kontakt və layt-kontakt versiyaları üzrə mübarizə aparıb və bütün rəqiblərini məğlub edərək Avropa çempionu adına layiq görülüb.

Qeyd edək ki, bu, idmançımızın ilk uğuru deyil. Buna kimi Nail Hüseynov qarışıq döyüş növləri üzrə Avropa və dünya çempionatlarının da mükafatçısı olub.

**Ceyhun MƏMMƏDOV**

**İtmişdir**

Naxçıvan şəhəri, "İstiqlal" küçəsi, bina 113, mənzil 17-də yaşayan Hacıyeva Gülnarə Nadir qızının adına olan 1448 inventar nömrəli texniki pasport və MH-0006274 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 309